Şəddat Cəfərov... Azərbaycanın görkəmli poliqrafçı alimi, sözün həqiqi mənasında ustad naşir - bu adı hər kəs, Azərbaycan mühitində demək olar ki, kitabla maraqlanan, kitaba dəyər verən hər kəs eşidib. Bu adın arxasında kimin dayandığını da yaxşı bilir.

Şəddat Cəfərov ilk gəncliyindən üzü bəri əmək fəaliyyətinə mətbəədə ən aşağı işdən başlayıb. Sinkoqraf olub, yəni şəkilləri metala köçürən... Onun işinə zəkalı yanaşması, fəaliyyətinə yaradıcı münasibəti rəhbərliyin diqqətini cəlb edib. Əmək dərəcələri sürətlə artırılıb. O da mənəvi potensiyalını durğun saxlamayıb. Oxuyub, təhsil alıb. Savadını, biliyini, xüsusilə ixtisas sahəsində bacarıqlarını inkişaf etdirib. Nəhayət, poliqrafçı mütəxəssis kimi yetişib. Hələ üstəlik bu sahə üzrə elmi iş də yazıb və alimlik dərəcəsi alıb. Azərbaycanda ilk poliqrafçı alim kimi tanınıb. Onun kitabçılıq sahəsindəki fəaliyyəti kitab formatlarının janr baxımından müxtəlifliyini demək olar ki, bütövlükdə əhatə edir. Ən müxtəlif ölçü və formatlarda kitab çap etmək ustadı kimi məşhurlaşıb.

Son on illiklərdə Şəddat Cəfərov həm də miniatür kitab ustadı kimi tanınıb. Onun Zəlimxan Yaqub, Nijad Mikayılzadə, İsaq Əmənullayev, Elşad Səfərli... və digər sənətkarların həyat və yaradıcılıqlarını qısa miniatür şəkildə ehtiva edən kitabları nəşr etməsi poliqrafiya sahəmizin tarixi üçün nadir töhfələrdir.

Şəddat Cəfərov Azərbaycanın kitab poliqrafiyasında demək olar ki, yeni bir mərhələ yaradıb. Bir az da tarixə diqqət edək: Azərbaycanın kitabçılıq tarixi çox qədim olmasa da, kifayət qədər zəngindir. Elə sonuncu bir əsri götürək. Yüz il ərzində Azərbaycanda mətbəələrin sürətli inkişafı kitab çapının da fərqli müstəviyə çıxmasında xüsusi əhəmiyyət kəsb edib.

Şəddat Cəfərov özü poliqrafiyamızın inkişaf yolu haqqında danışanda deyir: "Ötən əsrin əvvəllərinə aid kitabları indi nadir nüsxələr kimi qarşılayırıq. Hətta Azərbaycan dilində Tiflisdə, Kazanda nəşr olunan kitablar da

# Azərbaycanda miniatür kitab fəlsəfəsinin ustadı




olub və həmin kitabları biz mənəviyyat tariximizin abidə nümunələri kimi görəndə əzizləyirik.

XX əsrin siyasi kataklizmlər dövrü kitab nəşrinə də müəyyən təsirlər göstərib. Doğrudur, cümhuriyyət dövründə də kitablar nəşr olunub. Amma sovetləşmədən sonra kitab mühüm ideoloji vasitəyə çevrildi. Siyasi ədəbiyyat bütövlükdə Sovet ideologiyasının təbliğinə həsr olunurdu. Ancaq indi sevinməliyik ki, müstəqillik kitab nəşri işinə də geniş meydanlar açıb, kitab formatlarının müxtəlif formaları poliqrafiyanın özünüifadə imkanlarını da gerçəkləşdirə bilir. Bu da məni sevindirir. Ona görə ki, illər boyu arzuladığım ən müxtəlif kitab formatlarını həqiqətə çevirmək imkanları qazanmışam". Şəddat Cəfərovun bu düşüncələri reallığa söykənir. O doğru deyir. Cəmiyyətin inkişafı ideyaların gerçəkləşməsindən çox asılıdır. Şəddat Cəfərov da poliqrafiyada yaradıcı bir sima olduğu üçün bu imkanları gerçəkləşdirmək istəyində olub.

Azərbaycanın kitab nəşri tarixi zaman-zaman araşdırılacaq, öyrəniləcək. Şübhəsiz, diqqətli araşdırmalar ustad poliqrafların kimliklərinə də işıq tutacaq. Gələcək nəsillər onları da yaxşı tanıyacaq. Bu yöndən yanaşanda Şəddat Cəfərovun naşir kimi poliqrafiya sənətinə yaradıcı münasibəti də öyrəniləcək. Təsadüfi deyil ki, bu günlərdə Şəddat Cəfərovun miniatür kitabının təqdimatı Azərbaycanın kitab incəsənətinin tarixində xüsusi yeri olan miniatür kitab muzeyində keçirilib. Və bu tədbirdə görkəmli mədəniyyət və incəsənət xadimləri, böyük ədəbiyyat adamları yaxından iştirak ediblər.

Uzun illərdir ki, poliqrafiya ilə sıx təmasda olan naşirlik işi ilə məşğulam, yüzlərlə kitabı redaktə etmişəm, bəlkə daha çox kitabın tərtibçisiyəm. Amma son nəticədə həmişə mənim məsləhət yerim Şəddat Cəfərov olub. Nəşrə hazırladığım kitabların formatı ilə bağlı yaranan bütün çətinlikləri Şəddat Cəfərov çox asanlıqla, həm də səhvlərimi mənə öyrətməklə yoluna qoyub. Ona görə naşirlik işində də Şəddat Cəfərovu ustadım hesab edirəm və onun ustadlıq yolunu bundan sonra da qorumağı özümə borc bilirəm.

Ustada bundan sonra da xalqımızın mənəvi inkişafı yönümündə fəaliyyətinə uğurlar diləyirəm.

*Əli Rza* Xələfli
***20.09.2022***

Kredo .- 2022.- 21 sentyabr.- S.11.